Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir

# İsanın Möcüzələri



Müəllif: Edward Hughes

İllüstrasiya edən: Byron Unger; Lazarus

Uyğunlaşdıran: E. Frischbutter; Sarah S.

Tərcümə edən: Günay Əsədova

Alastair Paterson

Təqdim edən: Bible for Children
www.M1914.org

©2020 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini
çıxarda bilmək hüququna maliksiniz.

İsa çoxlu möcüzələr etdi.  Möcüzələr İsanın həqiqətən Allahın Oğlu olduğunu göstərmək üçün əlamət idi.  İlk möcüzə toy ziyafətində baş verdi.  Problem yarandı. Orada hamı üçün kifayət qədər şərab yox idi.



İsanın anası Məryəm Ona problem haqqında dedi, sonra xidmətçilərə İsa nə deyərsə, onu yerinə yetirmələrini tapşırdı.



İsa dedi: “Bu küpləri su ilə doldurun”.
Yəqin ki, onlar soruşdular: “Su?”
Bəli, İsa su gətirmələrini tələb etdi.



Sonra İsa xidmətçiyə dedi ki, o böyük küpdən bir az götürsün və dadına baxması üçün toyağasına aparsın.  Su şəraba çevrilmişdi! Yaxşı şəraba! Ən yaxşı şəraba!



Xidmətçilər heyrətləndilər.
İsa suyu şəraba çevirdi.
Yalnız Allah belə
möcüzə edə bilərdi.





İsa başqa möcüzələr də etdi. Bir dəfə axşam İsa və Onun şagirdləri Peterin evinə getdilər. Peterin qayınanası çox xəstələnmişdi, qızdırma içində idi.

İsa xəstə qadının əlinə toxundu.  Həmin an qadın sağaldı. O, ayağa qalxıb İsaya və Onun şagirdlərinə xidmət etməyə başladı.



O axşam elə bil ki,
bütün şəhər qapıda
toplaşmışdı. Kor,
kar, lal, şikəst - xəstə
adamlar gəldilər. Hətta
daxillərində
cin olan adamlar
da İsanı əhatəyə
almışdılar. O,
bu qədər adama
kömək edə
bilərdimi?



Allahın Oğlu İsa edə bilərdi. İsa kömək etdi. Onun yanına gələn hər bir kəs şəfa aldı. Həyatı boyu qoltuqağacı ilə özlərini zorla dartan adamlar indi yeriyir, qaçır və hoppanırdılar.





Cüzama tutulmuş
digərləri də gəldilər.



İsa onlara şəfa verəndə onlar da sağlam və təmiz oldular.

Cinlərdən əzab
çəkən kişi və
qadınlar İsanın
qarşısına
gəldilər.  O,
onları tərk
etmələrini
cinlərə əmr etdi.
Cinlər itaət
etdikcə, qorxu
içində olan bu
bədbəxt adamlar
sakitləşir və
sevinclə
dolurdular.



İzdihamın arxasındakı dörd kişi İsanın onların xəstə dostlarına kömək etməsinə çalışırdı.  Amma onlar yaxınlaşa bilmirdilər.  Onlar nə edə bilərdilər?



Xəstə adamı evin damına
qaldıraraq, dörd sadiq dost
evin damını sökdülər və
onu damdan aşağı saldılar.
Artıq o, İsaya
yaxın idi.



İsa gördü ki, bu dörd dostun imanı var. O, xəstə adama dedi: “Sənin günahların bağışlandı. Yatağını götür və yeri”. Adam sağlam və güclü halda ayağa qalxdı. İsa ona şəfa verdi.





Qısa vaxtdan sonra İsa şagirdləri ilə qayıqda idi. Dənizdə vahiməli bir fırtına qalxdı. İsa yuxuya getmişdi. Qorxmuş şagirdlər Onu oyatdılar. Onlar ucadan dedilər: “Rəbb, bizi xilas et. Biz məhv oluruq!”

İsa dalğalara əmr etdi: “Sakit olun”.  Dəniz dərhal sakitləşdi.  Onun şagirdləri öz aralarında pıçıldadı: “Bu Adam kimdir?”  Hətta dəniz də Ona itaət edir. Onlar İsanın Allahın Oğlu olduğuna inandılar, çünki Onun möcüzələri Onun izzətini göstərirdi.  Şagirdlər bunu bilmirdilər, lakin İsa insanlar arasında Allaha xidmət etdikcə



onlar İsanın daha böyük möcüzələr yaradacağını görəcəklər.

İsanın Möcüzələri

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Matta 8-9, Mark 1-2, Mark 4, Luka 4, Luka 8, Yəhya 2

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**